# Lerikdə Nəsimiyə həsr olunmuş müsabiqəyə yekun vurulub

**Ötən gün Yeni Azərbaycan Partiyasının (YAP) tədbirlər planına uyğun olaraq YAP Lerik rayon təşkilatı, təhsil şöbəsi və Lerik Rayon Mədəniyyət Mərkəzinin birgə dəstəyi ilə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bədii-qiraət müsabiqəsi keçirilib.**



Müsabiqənin ilkin mərhələsi Lerik rayon ümumtəhsil tam orta məktəblərinin 11-ci sinif şagirdləri arasında aparılıb və birinci mərhələdə seçilən şagirdlərin iştirakı ilə müsabiqənin final mərhələsi keçirilib. Münsiflər heyətinin qərarı ilə üç nəfər rayon məktəblisi - Ləman Xanışova, Kənan Seyfullazadə və Niyazi Vəliməmmədov müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutaraq müsabiqənin Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.



Mükafatlandırma mərasimindən sonra çıxış edən YAP Lerik rayon təşkilatının Aparat rəhbəri Elxan Qəmbərov bildirib ki, Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi İli" elan edilməsi şairə verilən dəyərin, hörmət və ehtiramın, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına böyük diqqətin nəticəsidir.

**Taleh Bağırov,**
***"İki sahil"***

İ*ki sahil.- 2019.- 231 iyun.- S.7